AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA TURİZMİN ROLU

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Tural Vətən oğlu Məmmədov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün

təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun "Regional inkişaf və təbii sərvətlərdən istifadə problemləri" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
Rəna Polad qızı Sultanova

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
Leyli Əli qızı Allahverdiyeva

iqtisad elmləri üzrə fəlsəfə doktoru
İsa İbadulla oğlu Muradov

iqtisad elmləri üzrə fəlsəfə doktoru
Samirə Rasim qızı Rüstəmova

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: iqtisad elmləri doktoru, professor
Nazim Müzəffər oğlu İmanov

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru
Sevda Məmməd qızı Seyidova

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
Tərbiz Nəsib oğlu Əliyev

İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi: Müasir dövrdə qeyri-neft sektorunun əsas sahələrindən biri olan turizm gəlir gətirən sahə kimi çıxış edir. Ölkəyə gələn maliyyə axını həm iqtisadi, həm də sosial sahələrin inkişafına öz təsirini göstərməkdədir.

Dünyada baş verən qloballaşma prosesi turizm sahəsinin formalaşmasında təsiredici bir qüvvədir. Turizm vasitəsi ilə ölkələrin bir-biri ilə maliyyə mübadiləsi baş verir və onlar arasında iqtisadi əlaqələr möhkəmlənir. Bu da ölkənin iqtisadi vəziyyətində və sosial məsələlərin həllində öz əksini tapır.

Hazırda turizmin inkişafı iqtisadi əlaqələrin dərinləşməsinə və inteqrasiyaya təsir etməklə yanaşı turist səfərlərinin əhəmiyyətini daha da artırır ki, bu da bir çox ölkələrin ÜDM-də özünü göstərir. Turizmin dünyada gəlirli sahə olmasını nəzərə alaraq beynəlxalq əmək bölgüsündə bir sıra ölkələrin bu sahə üzrə ixtisaslaşmasına səbəb olmuş və Azərbaycanda onun diqqət mərkəzində saxlanılması, ilk növbədə turizm potensialının müxtəlifliyi ilə bilavasitə əlaqədardır.

Beynəlxalq turizmin inkişafı dünya ölkələrini vahid təşkilatda (BMT-nin nəzdində Dünya Turizm Təşkilatı - UNWTO United Nations World Tourism Organization) birləşdirmişdir. Azərbaycan Respublikasının bu təşkilata 2001-ci ildən tam hüquqlu üzv qəbul edilməsindən sonra qarşılıqlı əlaqələr qurulmuş və turizmin inkişafına bir çox tövsiyələr verilmişdir. Bütün bunlar respublikada turizm sahəsində konkret addımların atılmasına səbəb olmuşdur.

Qeyd etmək lazımdır ki, turizmin inkişafı ilə bağlı bir sıra qanun və dövlət proqramları qəbul edilmişdir ki, onlardan da "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı", 27 dekabr 2021-ci ildə qəbul edilmiş "Turizm haqqında" Azərbaycan Respublikası Qanunu (18 fevral 2022-ci ildə qüvvəyə minmiş) və "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-

cu illər üçün Dövlət Proqramı"-nı göstərmək olar. Bundan əlavə 2011-ci ilin Azərbaycanda "Turizm ili" adlandırılması da turizmə qoyulan diqqətin bariz nümunəsidir.

Onu da vurğulamaq lazımdır ki, 2018-ci ilin yanvar ayının 31-də Naxçıvan Ali Məclisinin "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına" dair Dövlət Proqramı təsdiq edilərək həyata keçirilmişdir. Belə ki, qəbul olunmuş qanun və normativ-hüquqi aktlar turizmin inkişafına daima öz təsirini göstərməkdədir.

Naxçıvan regionunun qonşu ölkələrlə müqayisədə potensialının kifayət qədər olması turizm sahəsinin nəzəri və praktiki aspektlərinin öyrənilməsinə zəmin yaradır. Zəngin yeraltı və yerüstü təbii sərvətlərə malik olan Naxçıvan MR-da turizm üçün daha əlverişli şərait yaranmış və burada mövcud olan resurs potensialından tam istifadə bu regionun iqtisadiyyatına müsbət təsir etməklə, əhalinin maddi-rifah halının yaxşılaşdırılmasına səbəb olacaq. Bu potensiala əsasən turizmin inkişaf mexanizminin tərtibi və onun regionda tətbiqi prioritet məsələlərdən biridir.

Turizmin inkişafı üçün əsas meyar turizm resurslarından düzgün istifadə etməkdir. Naxçıvan MR-da turizm resurslarının qənaətbəxş olmasına baxmayaraq, onlardan düzgün istifadə edilməməsi bu regionda turizmin inkişafına öz mənfi təsirini göstərir.

Hazırkı dövrdə turizmin Naxçıvan regionun iqtisadiyyatında rolunun artırılmasına çox böyük ehtiyac duyulur və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında böyük təsiredici qüvvəyə malikdir. Əsasən də turizm sahəsində xidmətlərin qiymət baxımından yüksək olmasını, kadr çatışmazlığını, maarifləndirmə işlərinin aşağı səviyyədə olmasını qeyd etmək olar. Bu baxımdan regionda turizm resurslarından səmərəli istifadə edilməsi, ilk növbədə, regional iqtisadiyyatda turizmin rolunun artırılmasına və sosial-iqtisadi inkişafına təkan verəcəkdir. Beləliklə, bu problemin indiyə qədər tədqiq edilməməsi, aparılan tədqiqatda mövzunun seçilməsinə səbəb olmuş və onun aktuallığını artırmışdır.

Bütün bunları nəzərə alaraq, turizm sektoru ölkə iqtisadiyyatında ən sürətlə inkişaf edən sahələrdən biri olması, onun

xüsusiyyətlərini və mövcud olan problemlərini dərindən tədqiq edilməsini aktuallaşdırır.

Azərbaycanda turizmin ayrı-ayrı problemləri bir sıra iqtisadçı alimlərin əsərlərində, əsasən də Ə.X.Nuriyev, Ə.Q.Əlirzayev, R.P.Sultanova, M.S.Bağırov, F.P.Rəhmanov, L.Ə.Allahverdiyeva və b. əsərlərində öz əksini tapmışdır.

MDB ölkələri alimlərindən V.A.Kvartalnov, A.B.Zdorov, İ.T.Balabanov, M.B.Birjakov və s. elmi əsərlərində turizm sahəsində tədqiqatları qeyd etmək olar.

Bu sahədə olan digər xarici ölkə alimlərindən isə P.Kotler, G.Armstrong J.S.Page, J.C. Holloway, C.Humphreys, D.Karagöz, Z.Akıncı, Z.Eralp, M.Kozak və digərlərini misal göstərmək olar.

Yuxarıda qeyd olunan alimlərin tədqiqatlarına baxmayaraq, təqdim olunan dissertasiya işində verilən problem ilk dəfə olaraq tədqiq edilmiş və o, xüsusi tədqiqat obyekti kimi çıxış etməmişdir. Onu da qeyd etmək lazımdır ki, turizmin ölkə iqtisadiyyatında ayrı-ayrı problemlərinin tədqiqi hələ də qalmaqdadır. Bazar iqtisadiyyatı şəraitində qeyri-istehsal sahələrindən biri olan turizmin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına təsirinin öyrənilməsi, bu regionun iqtisadiyyatının dayanıqlığının təmin olunmasının prioritet məsələlərindəndir.

Bütün bunları nəzərə alaraq, işin aktuallığı və istənilən səviyyədə tədqiq olunmaması təqdim edilmiş dissertasiya mövzusunun seçilməsinə şərait yaratmışdır.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti Naxçıvan Muxtar Respublikasının turizm sahəsidir. Tədqiqatın predmeti isə Naxçıvan Muxtar Respublikasında turizmin sosial-iqtisadi inkişafa təsir mexanizmlərinin tədqiqi və onların qarşılıqlı əlaqələrinin qiymətləndirilməsi təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqat işinin əsas məqsədi Naxçıvan MR-da turizmin regionun sosial iqtisadi inkişafına təsirinin artırılması istiqamətində təklif və tövsiyələrin verilməsindən ibarətdir. Tədqiqatın məqsədi üçün aşağıdakı bir sıra vəzifələr həyata keçirilmişdir.

- Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf xüsusiyyətlərinin araşdırılması

- Naxçıvan iqtisadi rayonunun sosial-iqtisadi inkişafı üçün regionda mövcud olan turizm müəssisələrinin fəaliyyətinin təhlili;
- Dünya ölkələrinin xarici təcrübəsini əsas götürərək tədqiq edilən regionda turizm sahəsinin vəziyyətinin öyrənilməsi;
- Regionda turizm və onunla əlaqəli sahələrin inkişafı nəticəsində formalaşan daxili turizmin qiymətləndirilməsi;
- Naxçıvan Muxtar Respublikasında turizmin səmərəli idarəetmə mexanizminin tənzimlənməsinin göstərilməsi;
- Qloballaşma nəticəsində formalaşan beynəlxalq turizmin regionun sosial-iqtisadi inkişafına təsirinin tədqiq olunması;
- Naxçıvan regionunda turizm sahəsinin inkişafı istiqamətində dövlət dəstəyinin və iqtisadi siyasətin aparılmasının əsaslandırılması;
- Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən turizm müəssisələrində marketinq strategiyalarından istifadə edilməsi;
- Naxçıvan iqtisadi rayonunda turizmin inkişafı baxımdan mövcud problemlərin aradan qaldırılması və onların həlli yollarının müəyyənləşdirilməsi;

Tədqiqatın metodları. Tədqiqat işində iqtisadi statistik qruplaşdırma, müşahidə, qrafik, sistemli və müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, riyazi modelləşdirmə və s. metodlardan istifadə olunmuşdur.

Müdafiəyə çıxarılan əsas müddəalar:

1. Dünya ölkələrinin təcrübəsindən yararlanaraq sərhədyanı ölkələrlə ticarət əlaqələrinin inkişafı azad iqtisadi zonanın yaradılmasına imkan verir, Zəngəzur dəhlizinin açılması isə bu əlaqələri genişləndirir.
2. Azərbaycan regionlarında mövcud olan turizm müəssisələrinin fəaliyyətinin düzgün istiqamətdə araşdırılması, onların səmərəli idarə edilməsinin təkmilləşdirilməsi, rəqabət mühitinin formalaşdırılması, dövlətin turizmin hər bir növünə xüsusi qayğı ilə yanaşması bu sahənin inkişafına birbaşa təsir göstərir.
3. Naxçıvan MR-nın inkişafı ilə bağlı dövlətin qəbul etdiyi proqramların icrasına nəzarətin gücləndirməsi yeni istirahət komplekslərinin tikilməsinə, iş yerlərinin açılmasına, bu sahədən

daxil olan gəlirin artmasına və əhalinin sosial-rifah vəziyyətinin yaxşılaşmasına gətirib çıxarır.

4. Naxçıvan MR-da turizmin inkişafına dair milli strategiyanın hazırlanması, bu sahənin hər bir növünün müstəqil şəkildə inkişafı üçün atılan addımlar, kadr potensialının düzgün qurulması, xidmət keyfiyyətinin artırılması istiqamətində görülən tədbirlər, turizm zərfinin satışı və bu satış nəticəsində daxil olan gəlirlər regional iqtisadiyyatın dirçəlməsinə xidmət edir.

5. Regionda həyata keçirilən tədbirlər turizmin bütün növlərinin, xüsusilə də dini, müalicə-sağlamlıq və istirahət turizminin inkişafına, xeyli sayda turizm zərfinin satılmasına, yeni iş yerlərinin açılması ilə işsizlik probleminin qismən həll olmasına, işçi qüvvəsi axınının (əhalinin iş üçün başqa regionlara, yaxud da ölkələrə getməsi) qarşısının alınmasına köməklik göstərir.

6. Turizm sahəsinin inkişafı ÜDM-də bu göstəricinin artmasına, regionun yerli büdcəsinin formalaşmasına, bu büdcənin hesabına regiona ayrılan dotasiyanın azalmasına və bunun əsasında da Azərbaycan Respublikasının dövlət büdcəsinin xərclərinin aşağı səviyyəyə düşməsinə səbəb olur.

Tədqiqatın elmi yeniliyi.

- Naxçıvan iqtisadi rayonun sosial-iqtisadi inkişafında turizm müəssisələrinin fəaliyyətinin kompleks təhlili əsasında mövcud ehtiyatlar aşkar edilmişdir;
- Regionda turizm sahəsinin inkişafı nəticəsində daxili turizmin mövcud vəziyyəti araşdırılaraq onun imkanları müəyyən edilmişdir;
- Beynəlxalq təcrübədən yararlanaraq turizm sahəsinin inkişafının üstün cəhətlərinin Naxçıvan Muxtar Respublikasında tətbiqi təklif edilmişdir;
- Naxçıvan Muxtar Respublikasında turizm sahəsinin səmərəli idarə edilməsi prosesinin təkmilləşdirilməsi yolları verilmişdir;
- Dünyada baş verən iqtisadi inteqrasiya nəticəsində formalaşan beynəlxalq turizmin regionun sosial-iqtisadi inkişafına təsiri göstərilmişdir;
- Naxçıvan regionunda turizm sahəsinin prioritet məsələ olması istiqamətində görülən tədbirlər və bu sahənin daha çox inkişaf etməsi üçün dövlət dəstəyinin vacibliyi əsaslandırılmışdır;

- Naxçıvan iqtisadi rayonun turizm müəssisələrində marketinq xidmətinin təşkili və ondan səmərəli istifadə mühüm əhəmiyyət kəsb etmişdir;

- Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi yolları tədqiq olunmuş və onun əsas istiqamətləri təyin olunmuşdur;

- Naxçıvan regionunda turizm sektorunun inkişafı baxımdan makroiqtisadi göstəricilərin ÜDM-ə təsirinin ekonometrik qiymətləndirilməsi verilmiş və bu göstəricilərlə ÜDM arasındakı asılılıq təhlil edilmişdir;

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqat işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, Naxçıvan MR-nın turizm resursları araşdırılmış, bu sahənin inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

Tədqiqat işinin praktiki əhəmiyyəti turizmin regionun sosial iqtisadi inkişafına təsirinin tədqiqindən və yüksək səmərəliliyinin əldə olunmasından ibarətdir.

Aprobasiyası və tətbiqi. Dissertasiya işinin əsas müddəaları və nəticələri beynəlxalq, respublika səviyyəli elmi praktiki konfranslarda şərh və müzakirə edilmişdir.

Elmi işdə əldə olunan nəticələr 6 beynəlxalq və 3 respublika əhəmiyyətli konfrans materialında dərc olunmuşdur. Onların sırasına III Respublika elmi-praktiki konfransının materialları (s.147-151, 2009), "Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri" Beynəlxalq konfransının (s.181-183, 2011), Материалы научно-практической конференции "Ролъ науки в развитии общества" (с.110-111, 2012), Проблемы и перспективы инновационного развития экономики. Материалы XVIII Международной научно-практической конференции (с.347-349, 2013) "Azərbaycanda Davamlı Turizm Məhsulları" Respublika elmi praktiki konfransının (s.179-184, 2017), "Strateji iqtisadi islahatlar: Qabaqlayıcı vergi siyasəti" Beynəlxalq elmi praktiki konfransının (s.371-373, 2017), "İqtisadi artım və ictimai rifah" Beynəlxalq elmi praktiki konfransının (s.641-646, 2019), "Dayanıqlı inkişaf, uğurlar, perspektivlər 1995-2020" Beynəlxalq konfransının (s.109-112, 2021), "Azərbaycan Respublikasının

sosial-iqtisadi inkişafının aktual problemləri" Respublika elmi konfransının materiallarında (s.303-306, 2022) dərc olunmuş məqalə və tezislər daxildir.

Dissertasiya mövzusu üzrə 11 elmi məqalə dərc edilmişdir. Onlardan 1-i Rusiyada Yaroslav Dövlət Texniki Universitetinin "İqtisadi nəzəriyyə" adlı elmi jurnalında, 10-u isə Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda çap edilmişdir.

Dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı: Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun "Regional inkişaf və təbii sərvətlərdən istifadə problemləri" şöbəsində yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, üç fəsil, nəticə, təklif və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşin ümumi həcmi 152 səhifədən ibarətdir. Dissertasiya Giriş (11187), I Fəsil (58605), II Fəsil (51361) III Fəsil (119283), Nəticə (4129), Təklif (5320), 107 ədəbiyyat siyahısından ibarətdir. İşin həcmi şəkillər, cədvəllər, qrafiklər və ədəbiyyat siyahısı istisna olmaqla, 239 743 işarə təşkil edir.

MÜNDƏRİCAT

GİRİŞ

FƏSİL I. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINA TURİZMİN TƏSİRİNİN ÖYRƏNİLMƏSİNİN NƏZƏRİ METODOLOJİ ƏSASLARI

1.1.Naxçıvan Muxtar Respublikasında turizmin sosial-iqtisadi inkişafa təsir xüsusiyyətləri

1.2. İqtisadi rayonun sosial-iqtisadi inkişafında turizm müəssisələrinin səmərəli fəaliyyət imkanları

1.3. Turizmin inkişafında xarici təcrübənin öyrənilməsi

FƏSİL II. NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TURİZMİN SOSİAL-İQTİSADİ İNKİŞAFA TƏSİRİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

2.1.Naxçıvan Muxtar Respublikasında daxili turizmin inkişafının müasir vəziyyətinin təhlili

2.2.Regionda turizmin səmərəli idarəedilməsi mexanizmləri

2.3.Beynəlxalq turizmin regionun sosial-iqtisadi inkişafına təsiri

FƏSİL III: NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA TURİZMİN ROLUNUN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

3.1. Regionda turizmin inkişafında dövlət dəstəyinin gücləndirilməsi

3.2. Naxçıvan Muxtar Respublikasının turizm müəssisələrində marketinq fəaliyyətinin təkmilləşdirilməsi

3.3. Naxçıvan iqtisadi rayonunda turizmin inkişaf yolları

3.4. Naxçıvan Muxtar Respublikasında turizmin ekonometrik qiymətləndirilməsi

NƏTİCƏ

TƏKLİFLƏR

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın Giriş hissəsində mövzunun aktuallığının işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası verilmişdir.

Dissertasiya işinin "**Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına turizmin təsirinin öyrənilməsinin nəzəri-metodoloji əsasları**" adlanan birinci fəslində Naxçıvan MR-da turizmin sosial-iqtisadi inkişafa təsir xüsusiyyətləri, iqtisadi rayonun sosial-iqtisadi inkişafında turizm müəssisələrinin səmərəli fəaliyyət imkanları və xarici təcrübə dərindən tədqiq edilmişdir.

Naxçıvan regionunun turizmin inkişafı baxımdan zəngin potensiala malik olması, ərazi quruluşunun bir çox hissəsinin dağlıq təşkil etməsi dağ-ekstremal turizmin inkişafı üçün şərait yaratmışdır. Bununla yanaşı ərazidə çox sayda mineral ("Sirab", "Badamlı" və s.) bulaqları, müalicəvi yerlərin ("Duzdağ" Fizioterapiya Mərkəzi, "Darıdağ" Arsenli Su Mərkəzi və s.) olması regionda müalicə-sağlamlıq turizminin inkişafına təkan verəcək. Gözəl təbiəti, mənzərəli yerlərin (Batabat, Göygöl gölləri, Pəzməri, Keçili, Nursu, Kükü kəndləri və s.) mövcudluğu istirahət turizminin, kəndlərdə yaradılan infrastruktur isə aqroturizmin regionda gələcək inkişafından xəbər verir. Tədqiqat göstərir ki, regionda bu turizm növlərinə maraq böyükdür və turistlərin sayı pandemiyaya qədər artmaqda idi. Pandemiyanın mənfi təsirinə baxmayaraq regionda mövcud olan turizm potensialı burada turistlərin sayının artmasının proqnozlaşdırılmasına şərait yaradır.

Naxçıvan Muxtar Respublikasında 250-dən artıq mineral su (ümumilikdə ölkə ərazisində olan mineral su ehtiyatının 35 %-ini təşkil edir) yataqları mövcuddur ki, bunlardan da ən məşhurları "Badamlı", "Sirab", "Vayxır", "Gülüstan" və "Çınqıllı" hesab olunur. Bu isə regionun təbii sərvətlərindən biri hesab olunaraq müalicə-sağlamlıq turizminin inkişafına öz müsbət təsirini göstərəcək. Eyni zamanda Muxtar Respublikanın çox zəngin fauna və florası da vardır ki, bu da ekoturizmin inkişafını sürətləndirəcək. Belə ki, regionda 3000-ə yaxın bitki, 373 heyvan, 226 quş növü mövcuddur və regionda ekoturizmin və ornitoloji turizmin (müxtəlif

quş cinslərini müşahidə etmək üçün səyahət) inkişafı baxımdan turistlərin axınını təmin edəcək. Naxçıvan MR-da Həsən Əliyev adına Ordubad Milli Parkı, Arazboyu Dövlət Təbiət Yasaqlığı, Ordubad Dövlət Yasaqlığı və Şahbuz Dövlət Təbiət Qoruğu nadir fauna və flora növlərinin qorunması üçün Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılmış qoruqlara nümunə göstərmək olar. Qoruqların, milli parkların salınmasının əsas məqsədlərindən biri də turizm və rekreasiya üçün şəraitin yaradılmasıdır. Bu da turizm sahəsinin inkişafına töhfə verir[1].

Beləliklə Naxçıvan MR-da turizm resurslarından səmərəli istifadə və onların inkişaf xüsusiyyətlərinə toxunaraq belə bir nəticəyə gəlmək olar ki, burada müalicə-sağlamlıq, ekoturizm, istirahət, dini, işgüzar, aqro, kənd və tarixi-mədəni turizm növlərinə zəmin yaranmış və onların sürətli inkişaf etdirilməsi məqsədəuyğun hesab olunur.

Son dövrdə Naxçıvan MR-nın sosial-iqtisadi göstəricilərini tədqiq edərək, burada müəyyən dəyişikliklərin baş verməsini müşahidə etmək olar. (Bax cədvəl 1.- ə):

Cədvəl 1

Naxçıvan MR-nın sosial-iqtisadi göstəriciləri, min manatla

Göstəricilər	2021	2023	2025	2021-2025-ci illər üzrə dəyişmə
Ümumi daxili məhsul	3016315,0	1424277,8	1709438,6	43,33 % azalıb
Sənaye məhsulu	1069655,7	595295,5	474240,6	55,66 % azalıb
Əsas kapitala yönəldilən vəsaitlər	1062165,8	166751,3	397341,3	62,59 % azalıb
Kənd təsərrüfatı məhsulu	573380,7	358429,4	402251,9	29,85 % azalıb
Nəqliyyat sektorunda yük daşınması (min ton)	16901,7	7076,4	7220,6	57,28 % azalıb
İnformasiya və rabitə xidmətləri	59331,2	34242,7	35289,1	40,52 % azalıb
Pərakəndə əmtəə dövriyyəsi	1790453,2	1186277,9	1420057,6	20,69 % azalıb
Əhaliyə göstərilən ödənişli xidmətlər	249938,1	178174,4	198489,6	20,58 % azalıb
Orta aylıq nominal əmək haqqı (manat)	553,6	689,0	822,3	48,54 % artıb

Mənbə: *Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. (https://nstat.gov.az./)*

Cədvəl 1-dən göründüyü kimi, Naxçıvan MR-da əhaliyə göstərilən ödənişli xidmətlərin payı 2021-ci ildə 249938,1 min manat,

[1] "Azərbaycan Respublikasının Milli Parklarının ümumi Əsasnaməsi". 4 iyul 2001-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin 531 nömrəli Sərəncamı.

2025-ci ildə 198489,6 min manat təşkil etmişdir ki, bu da 51448,5 min manat yaxud da 20,58 % azalma ilə müşahidə olunmuşdur.

Regionda turizm mühitinin yaradılması əsas məsələlərdən biridir. Regionda turizmin iqtisadi səmərəliliyini müəyyən edərək burada "turizm mühiti"nin formalaşması ön plana çəkilir. Turizmin iqtisadi səmərəliliyi dedikdə turizm və əmək ehtiyatından səmərəli (turizm zərfinin tərkibinə daxil olan bütün xidmətlərdən qismən az xərclə maksimum formada) istifadə nəzərdə tutulur. Turizmin iqtisadi səmərəliliyinin əsas cəhətlərindən biri də nəqliyyat-kommunikasiya infrastrukturunun (turizm zərfinin daxilində olan ehtiyatlardan istifadə zamanı həmin məkanda olan yol, bina və turistin istifadə edəcəyi bütün avadanlıqlar) yaxşılaşdırılması hesab edilir.

Tədqiqatın **"Naxçıvan Muxtar Respublikasında turizmin sosial-iqtisadi inkişafa təsirinin təhlili və qiymətləndirilməsi"** adlı ikinci fəslində Naxçıvan regionunda daxili turizmin inkişafının müasir vəziyyəti təhlil edilmiş, burada turizmin səmərəli idarəedilməsi mexanizmləri göstərilmiş və beynəlxalq turizmin təsir imkanları tədqiq edilmişdir

Naxçıvan MR-da daxili turizmin inkişafında regiondaxili turizm marşrutlarının böyük əhəmiyyəti vardır. Bu turizm marşrutları vasitəsilə turistlər regionda olan ehtiyatlardan istifadə edərək daxili turizmin inkişafına təkan verir. Naxçıvan regionunda turizm marşrutlarının təyinatına görə bir neçə növü mövcuddur ki, onlardan da Naxçıvan-Əshabi Kəhf marşrutu-dini, Naxçıvan-Batabat marşrutu-istirahət, Naxçıvan-Əlincə marşrutu isə tarixi-mədəni turizm marşrutuna aiddir.

Cədvəl 2

Naxçıvan regionunda turizmin əsas göstəriciləri.

Göstəricilər	2020	2022	2024	2020-2024-ci illər üzrə dəyişmə
Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin sayı, vahid	21	21	18	14,28 % azalıb
nömrələrin sayı, vahid	657	657	610	7,15 % azalıb
birdəfəlik tutum, yer	1517	1517	1437	5,27 % azalıb
yerləşdirilmiş şəxslərin sayı, nəfər	16320	56888	32413	98,61 % artıb
keçirilmiş gecələmələrin sayı, adam-gecə	23812	61190	41753	75,34 % artıb
Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin gəlirləri,min man	1744,3	4406,6	4283,0	1,45 dəfə artıb
Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin xərcləri,min man	1049,5	1871,1	4486,7	3,27 dəfə artıb
İaşə fəaliyyəti göstərən sahibkarlıq subyektlərinin sayı, vahid	889	911	924	3,94 % artıb
Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri, min manatla	243489,3	253012,2	185871,6	23,66 % azalıb
Satılmış turizm zərflərinin ümumi sayı, vahid	18	-	214	10,89 dəfə artıb
Ölkə daxilində səyahət üzrə satılmış turizm zərflərinin sayı, vahid	9	-	208	22,11 dəfə artıb
Xarici ölkələrə səyahət etmək üçün satılmış turizm zərflərinin sayı, vahid	9	-	4	55,55 % azalıb
Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə satılmış turizm zərflərinin sayı, vahid	-	-	2	-
Satılmış turizm zərflərinin dəyəri, min manatla	13,5	-	42,6	2,16 dəfə artıb
Turagent və turoperatorların ümumi gəlirləri, min manatla	5,5	0,3	322,4	57,62 dəfə artıb
Turagent və turoperatorların ümumi xərcləri, min manatla	13,8	5,4	50,1	2,63 dəfə artıb

Mənbə: *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. (https://www.stat.gov.az/source/tourism/)*

Cədvəl 2-dən göründüyü kimi, mehmanxana və mehmanxana tipli obyektlərinin gəlirləri 2020-ci ildən 2024-cü ilə qədər 1,45 dəfə, turagent və turoperatorların gəlirləri isə 57,62 dəfə artmışdır. Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 2020-ci ildən 21 vahiddən, 2024-cü ildə isə 18 vahidə qədər aşağı düşmüş, bu da 3 vahid, yaxud 14,28 % azalma deməkdir. Mehmanxana və mehmanxana tipli müəssisələrin birdəfəlik tutumu 2020-2024-cü illərdə 1517-dən 1437-ə qədər aşağı düşmüş, bu 80 vahid, yaxud da 5,27 % azalma deməkdir. Nömrələrin sayı 2020-ci ildə 657 vahiddən 2024-cü ildə 610 vahidə qədər aşağı düşmüş, bu isə 47 vahid, yaxud 7,15 % azalma kimi xarakterizə oluna bilər.

Naxçıvan MR-da 2024-cü ildə 42,6 min manat dəyərində turizm zərfi satılmışdır. Bura Azərbaycanın başqa regionlarına və xarici ölkələrə satılan turizm zərfinin dəyəri daxildir. Həmin il, yəni 2024-cü ildə Naxçıvan MR-nın ÜDM-in dəyəri isə 1561810,8 min manat təşkil edir. Satılmış turizm zərfinin dəyərinin ÜDM-də payı 0,0027 % təşkil edir. Yəni bu göstərici 1 %-dən də xeyli azdır. Turizm zərfinin daha çox satılması üçün dövlət həvəsləndirici tədbir görməlidir.

Naxçıvan regionunda daxili turizm Azərbaycan əhalisinin getmə turizmin alternativ formasıdır. Vurğulamaq lazımdır ki, ölkədə getmə turizmin inkişafına səbəb, ilk növbədə, mövcud olan turizm obyektlərinin və qiymətin turistlərin tələbatına cavab verməməsidir. Turizm ehtiyatlarını dövriyyəyə cəlb olunması, bu potensialdan düzgün istifadə edilməsinin zərurətini təşkil edir.

Hazırda Naxçıvan MR-a səyahət məqsədi ilə gələn turistlərin vaxtlarının səmərəli və asudə keçirilməsi turizm obyektləri rəhbərlərinin əsas məqsədidir. Bununla yanaşı, turistlərin müalicə, əyləncə, istirahət və s. təşkili üçün müasir infrastrukturun yaradılması, yüksək səviyyədə xidmətin təşkili turizm obyekt rəhbərlərinin əsas iş prinsipi olmalıdır.

Regiona gələn turistlərə keyfiyyətli xidmətin göstərilməsi, turoperatorlar tərəfindən turizm zərfinin hazırlanması, müxtəlif marşrutların təşkili və s. kimi tədbirlərin həyata keçirilməsi xidmət səviyyəsinin artırılmasının əsas şərtidir. Bütün bunlar beynəlxalq turizmin inkişafı üçün əsasən də dini turizmə geniş imkanlar yaradır

və bu sahənin sürətli inkişafına təkan verir. Dini turizm insanların böyük bir hissəsini özündə birləşdirmiş və orta əsrlərdə daha çox coğrafi ərazilərə səyahətlərin intensivləşməsinə gətirib çıxarmışdır. Həm coğrafi biliklərin məhdud olduğu dövr (keçmiş dövr), həm də informasiya vasitələrinin inkişaf etdiyi müasir zamanda dini turizm geniş yayılmışdır. Müasir dövrdə keçirilən müxtəlif dini tədbirlərdə çox sayda insanları özünə cəlb edərək dini turizmə maraq artır və belə məkanlardan istifadə beynəlxalq turizmin inkişafına təsir göstərir.

Vurğulamaq lazımdır ki, yaxın perspektivdə Zəngəzur dəhlizinin (avtomagistral və dəmir yol qovşağının) açılması regionda beynəlxalq turizmin sürətli inkişafına öz müsbət təsirini göstərəcək və əhalinin maddi-rifahının yaxşılaşdırılmasına şərait yaradacaq.

Gələcəkdə Zəngəzur dəhlizinin açılması regiona gələn turistlərin mehmanxana və mehmanxana tipli müəssisələrin xidmətlərindən daha çox istifadəsinə şərait yaradacaq və bunun əsasında da bu sahədən gələn gəlirin artmasına gətirib çıxaracaq. Bu sahənin gəlirlə fəaliyyət göstərməsi region iqtisadiyyatına və əhalinin sosial-rifah səviyyəsinə müsbət təsir göstərəcəkdir.

İşin **"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında turizmin rolunun artırılması istiqamətləri"** adlı üçüncü fəsildə regionda mövcud olan turizmin dövlət dəstəyinin güclənməsinə, müəssisələrin marketinq fəaliyyətinə və onun inkişaf yollarına toxunulumuşdur.

Turizm zonalarının yaradılması və bu sahənin inkişafı üçün xeyli miqdarda maliyyə vəsaiti lazımdır ki, bu da investisiyaların cəlb edilməsi istiqamətində tədbirlər görməyə imkan yaradır. Turizm gəlir gətirən sahələrdən biri olaraq, investisiya qoyuluşlarını həyata keçirir və tez bir zamanda mənfəətin əldə olunmasına zəmin yaradır.

Dövlətin turizmin inkişafı üçün görəcəyi işlərdən biri də mədəni yaxud idman tədbirlərinin həyata keçirilməsidir. Müxtəlif idman yarışlarının və tədbirlərinin, elmi-prakrtiki konfranslarının keçirilməsi regionun beynəlxalq aləmdə tanıdılmasına, eyni

zamanda turizm müəssisələrinin fəaliyyətinin artırılmasına müsbət təsir göstərəcəkdir.

Turizm sahəsi idarəetmə cəhətdən sahə, funksional və ərazi məqsədlərinə bölünür ki, bunlar da xüsusi mexanizmlərlə tənzimlənir. Dövlətin əsas məqsədi bu mexanizmlər vasitəsi ilə metodlar hazırlamaqdır. Dövlət dolayı və birbaşa təsir vasitəsi ilə idarəetmə sisteminin mexanizmini formalaşdırır. Dövlətin turizmlə bağlı apardığı strategiyada prioritet məsələ bu sahənin ölkənin iqtisadi həyatında (ÜDM-də və s.) əhəmiyyətinin artırılması, sosial mahiyyətinin genişləndirilməsi və gəlirlərin yüksəldilməsi hesab olunur. Turizm sahələrinin idarə olunmasına dövlətin təsiri sistemli formada həyata keçirilir. Bu, ilk növbədə, dövlətin turizm sahibkarlarına dəstəyi (vergidən azadolma, subsidiya və s.) ilə başlayır.

Turizm zərfində xidmətlər əsas və əlavə olmaqla 2 yerə bölünür. Əsas xidmətlərə nəqliyyat (turistin hərəkət trayektoriyasına görə), ekskursiya, qida və yerləşmə daxildir. Əlavə xidmətlərin əsasdan fərqləndirən cəhət ondan ibarətdir ki, əvvəlcədən onların haqqı ödənmir, turistə həmin məkanda təklif olunur, istifadəsi isə müştərinin istəyindən asılıdır. Bunlara idman, mədəni tədbir, sağlamlıq-tibb, əyləncə yönümlü və s. xidmətlər daxildir[2]

Turların hazırlanmasına təsir edən faktorlara turistik yerlərin gözəl olması və cəlbediciliyi daxildir. Naxçıvan MR-da belə məkanların bol olması turistlərin daha çox axınına səbəb olur. Turun hərəkət istiqaməti təyinatına görə dəyişir və bu amil qiymətə təsir edir. Turun qiymətlərinə mövsümi endirimlərin (müəyyən kompaniyalar çərçivəsində) turistlərin həmin müddətdə daha çox o xidmətlərdən istifadə etməsinə və turizm şirkətlərinin daha yüksək gəlir götürməsinə şərait yaradır. Belə ki, Azərbaycanın iqtisadi rayonları üzrə 2013-2024-cü illərdə turagent və turoperatorların əldə etdiyi gəlir Cədvəl 3-də verilmişdir.

[2] Cabbarov Ə.X. "Turizmin iqtisadi əsasları". Dərs vəsaiti. ADPU nəş. 2015, - 121 s.

Cədvəl 3

Azərbaycan Respublikası turagent və turoperatorların iqtisadi rayonlar üzrə əldə etdiyi ümumi gəlir, min manatla

İqtisadi rayonlar	2013	2019	2021	2024	2013-2024 cü illər üzrə dəyişmə
Ölkə üzrə cəmi	29600,9	63363,8	22614,8	166392,3	4,62 dəfə artıb
Bakı ş.	22668,7	61718,9	22105,5	155189,8	5,85 dəfə artıb
Naxçıvan	6755,2	18,0	0,3	322,4	19,95 dəfə azalıb
Abşeron	104,9	1058,3	34,8	3121,1	28,75 dəfə artıb
Dağlıq Şirvan	-	-	1,3	5,9	3.54 dəfə artıb (2021-2024)
Gəncə-Daşkəsən	13,3	170,1	121,7	4031,0	302,08 dəfə artıb
Qarabağ	-	-	-	0,9	-
Qazax-Tovuz	-	-	-	210,2	-
Quba-Xaçmaz	-	-	-	21,9	-
Lənkəran-Astara		72,3	64,8	193,8	1,68 dəfə artıb (2019-2024)
Mərkəzi-Aran	58,8	244,5	16,3	1098,5	17,68 dəfə artıb
Mil-Muğan	-	-	-	97,4	-
Şəki-Zaqatala	-	18,1	198,8	2092,2	114,59 dəfə artıb (2019-2024)
Şərqi-Zəngəzur	-	-	-	-	-
Şirvan-Salyan	-	63,6	-	7,2	7,83 dəfə azalıb (2019-2024)

Mənbə: *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. (https://www.stat.gov.az/source/tourism/)*

Aparılan təhlil göstərir ki, Naxçıvan iqtisadi rayonunda olan 2013-2018-ci illərdə turagent və turoperatorların gəlirlərində (6755,2 min manatdan 7241,0 min manata qədər) artım qeydə alınmışdır ki, bu isə 485,8 min manat yaxud da 7,2 % təşkil etmişdir. Lakin göstərilən artım 2019-cu ildə sürətlə aşağı enərək

18,0 min manat olmuşdur ki, bu da regionun inkişafına öz mənfi təsirini göstərmişdir. 2017-ci ildə gəlir 7207,1 min manat təşkil etdiyi halda, 2021-ci ildə bu rəqəm 0,3 min manata qədər azalmışdır. Bu isə 7206,8 min manat yaxud da 99,99 % azalma deməkdir. 2024-cü ildə isə turagent və turoperatorların əldə etdiyi gəlir 322,4 min manata qədər yüksəlmişdir ki, bu da pandemiyadan sonrakı dövrdə ən yüksək göstəricidir. Azərbaycan Respublikasında son 11 il ərzində (2013-2024-cü illər ərzində) turagent və turoperatorların göstəricisi üzrə ən yüksək artım (302,08 dəfə) Gəncə-Daşkəsən iqtisadi rayonu olmuşdur.

Regionda fəaliyyət göstərən turagent və turoperatorın əldə etdiyi gəlirlər Azərbaycanın başqa iqtisadi rayonlarına (Bakı ş., Abşeron, Gəncə-Daşkəsən, Mərkəzi Aran, Şəki-Zaqatala) nisbətən aşağı səviyyədədir.

Naxçıvan iqtisadi rayonunda turizmin inkişafına pandemiya mənfi təsir göstərmişdir. Naxçıvan MR-da turizmin inkişafı üçün müəssisələrin rəqabət qabiliyyətliliyinin artırılması istiqamətində tədbirlərin görülməsi region turizminə öz töhfəsini verəcəkdir. Bu eyni zamanda turizm növlərinə uyğun turizm məhsullarının hazırlanmasına, xidmətlərin müxtəlifliyinə və bunun da nəticəsində rəqabət mühitinin formalaşmasına gətirib çıxaracaqdır. Çünki müxtəlif xidmətlərin mövcudluğu turizmin hərtərəfli inkişafına şərait yaradır.

Beləliklə, Naxçıvan MR-da turizm sahələrinin inkişafı lazımi səviyyədə deyil. Onlardan dini və müalicə-sağlamlıq turizmin inkişafını qənaətbəxş hesab etmək olar. Hazırda regionda turizmin inkişafına diqqətin yönəldilməsi vacibdir və bu öz növbəsində yerli büdcəyə valyuta axının təmin olunmasına şərait yaradacaq.

Naxçıvan MR-da ödənişli xidmətlər, pərakəndə əmtəə dövriyyəsi və ÜDM göstəricilərinə nəzər salaq. (Qrafik 1)

Tədqiqat göstərir ki, ödənişli xidmətlərin dəyəri 2010-cu ildə 107,2 mln manatdan 2022-ci ildə 253 mln manata qədər artmışdır. Bu artım 145,8 mln manat və yaxud 136 % (1,36 dəfə) deməkdir.



	2010	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020	2021	2022
Ödənişli xidmətlər, mln. manatla	107,2	126,8	149,7	180,7	187,1	195,8	213,6	235,9	239,9	242,8	243,5	250	253
Parakəndə əmtəə dövriyyəsi, mln. manatla	616,4	815,7	975,3	1108,7	1144,5	1277	1506,3	1660	1702	1725,8	1737,7	1790,4	1819,5
ÜDM, mln. manatla	1171,3	1786,3	2103,4	2338,9	2391	2467,4	2582,4	2701,7	2773	2839,6	2907,8	3016,3	2990,1


Qrafik 1. **Naxçıvan MR-da turizm sektoru üzrə ödənişli xidmətlər, pərakəndə əmtəə dövriyyəsi və ÜDM, mln manatla**
Mənbə: *Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.(https://www.nstat.gov.az/)*

Müəyyən edilmişdir ki, pərakəndə əmtəə dövriyyəsi 2010-cu ildə 616,4 mln manatdan 2022-ci ildə 1819,5 mln manata qədər çoxalmışdır. Bu rəqəm 1203,1 mln manat və yaxud 195 % (1,95 dəfə) artmışdır.

ÜDM-in həcmi 2010-cu ildə 1171,3 mln manatdan 2022-ci ildə 2990,1 mln manata qədər yüksəlmişdir ki, bu da 1818,8 mln manat yaxud da 155 % (1,55 dəfə) artım təşkil etmişdir.

Qrafik 1-dən göründüyü kimi, Naxçıvan MR-da 2010-2022-ci illərdə turizm sektorunun inkişafı üzrə ödənişli xidmətlərin, eləcə də pərakəndə əmtəə dövriyyəsinin artmasına şərait yaranmışdır. Turizm sektoru üzrə makroiqtisadi göstəricilərin inkişaf tendensiyası Naxçıvan MR-nın ÜDM-in artan dinamika ilə inkişaf etməsinə gətirib çıxarmışdır. Bu baxımdan həmin göstəricilərin ÜDM-ə təsirinin qiymətləndirilməsi mühüm əhəmiyət kəsb edir.

Naxçıvan regionunda turizmin sosial-iqtisadi inkişafa təsirinin ölçülməsi məqsədi ilə ödənişli xidmətlərlə ÜDM arasındakı korrelyasiya asılılığına tədqiqi vacib hesab olunur. Belə ki, Naxçıvan MR-da turizm sektoru üzrə ödənişli xidmətlərlə ÜDM arasındakı korrelyasiya-reqressiya analizinin nəticəsi aşağıdakı Qrafik 2-də təqdim olunur.



Qrafik 2. **Naxçıvan MR-da ÜDM-lə ödənişli xidmətlər arasındakı korrelyasiya asılılığı**

Mənbə: *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Qrafik 2-dən göründüyü kimi Naxçıvan MR-da ÜDM-lə turizm sektoru üzrə ödənişli xidmətlər arasında Y=10,457x+354,6 xətti reqressiya tənliyi ilə ifadə olunan yüksək korrelyasiya asılılığı mövcuddur.

Əlaqə tənliyindəki sərbəst dəyişənlərin əmsalına və tədqiq olunan dövrlər üzrə səbəb amili kimi, turizm sektorunda ödənişli xidmətlər ilə ÜDM-in orta qiymətlərinə müvafiq olaraq elastiklik əmsalının hesablanması aşağıdakı nəticəni verməyə imkan yaradır:

$$E_1 = \frac{\alpha \times \bar{x}}{\bar{y}} = \frac{10,457 \times 187,5714}{2290,658} = 0,856276$$

Beləliklə, aparılmış tədqiqata əsasən müəyyən edilmişdir ki. Naxçıvan MR-da turizm sektorunun inkişafı, bu sektor üzrə ödənişli xidmətlərin dəyərinin və pərakəndə ticarətin həcminin artmasını labüd etmişdir. Turizm sektorunda ödənişli xidmətlərin dəyərinin 1 % artması iqtisadi rayonun ÜDM-də 0,86 % artmasına gətirib çıxarır.

NƏTİCƏ

Dissertasiya işində Naxçıvan iqtisadi rayonunun turizm potensialı tədqiq edilmiş və onun regionun sosial iqtisadi inkişafında istiqamətləri müəyyənləşdirilmişdir. Hazırda turizm potensialına əsasən turizm məhsulunun hazırlanması və beynəlxalq turizm bazarında təqdim olunması regionun sosial-iqtisadi inkişafına müsbət təsir göstərəcəkdir. Belə ki, aparılan tədqiqatda aşağıdakılar müəyyən edilmişdir:

1. İşdə turizm resurslarından istifadə üçün beynəlxalq təcrübə dərindən araşdırılmış, onun üstün cəhətlərinin Naxçıvan MR-da tətbiqi istiqamətində, ayrı-ayrı turizm növlərinin, o cümlədən dini və müalicə-sağlamlıq növünün inkişafı zəruri hesab edilir.

2. Dissertasiyada Naxçıvan regionunda turizmin inkişaf xüsusiyyətləri araşdırılmış, Müalicə-sağlamlıq, Ekoturizm, İstirahət, Dini, İşgüzar, Aqro, Kənd və Tarixi-mədəni turizm növlərinə kompleks şəkildə təhlil edilmiş və onların sürətli inkişafının təmin edilməsi qeyd edilmişdir. Regionda aqro və kənd turizminin inkişafı əhalinin məskunlaşmasına və aqrar sektorun inkişafına öz təsirini göstərəcək.

3. Müasir dövrdə turizm sahəsində xidmətin göstərilməsi, ilk növbədə, burada fəaliyyət göstərən kadrların etik normalara riayət etməsinə, əsasən də müştəri davranışına və mədəniyyətinə müsbət təsir göstərə bilər. Bu isə öz növbəsində, xidmət səviyyəsinin və müştəri məmnunluğunun artırılmasına yönəldilən əsas şərtdir. Məhz bu istiqamətdə kadr potensialından səmərəli istifadə maarifləndirmə işinin aparılmasını ön plana çəkir.

Tədqiqat göstərir ki, hazırda Naxçıvan MR-ın turizm müəssisələrinin fəaliyyətində problemlər hələ də qalmaqdadır və bu istiqamətdə tədbirlərin görülməsi zəruridir. Turizm sahəsində kadr potensialınının səviyyəsinin artırılması mütləqdir və bununla əlaqədar olaraq Naxçıvan Dövlət Universitetində (NDU-da) bu ixtisas üzrə kadr hazırlığı həyata keçirilsədə, ixtisaslı kadrlara olan ehtiyacı tam ödəmir.

4. Aparılan təhlil nəticəsində müəyyən edilmişdir ki, regionun turizm cəlbediciliyində və resurslarından istifadə də müəyyən problemlər var. Naxçıvan iqtisadi rayonunda iqlim şəraitinin müxtəlifliyi inzibati rayonlarda turizm komplekslərinin tikilib istifadəyə verilməsinə və bu istiqamətdə digər işlərin görülməsinə şərait yaradır. Belə tədbirlərin həyata keçirilməsi Naxçıvan MR-nın sosial-iqtisadi inkişafına müsbət təsir edə bilər.

5. Təhlil göstərir ki, pandemiya dövründə Azərbaycana ayrı-ayrı ölkələrdən, əsasən də İran, Türkiyə, Rusiya, Gürcüstan, Ukrayna və Orta Asiya respublikalarından gələn turistlərin sayı azalmış və bu, öz növbəsində, beynəlxalq turizm tempinin aşağı səviyyəyə düşməsinə səbəb olmuşdur.

6. Tədqiqatda göstərilir ki, turizm müəssisələri bir çox halda müəyyən maneələrlə üzləşir və bu onun fəaliyyətində neqativ tendensiyaların baş verməsinə səbəb olur. Turizm müəssisələrinin inzibati baryerlərlə rastlaşması onların fəaliyyətinin zəifləməsinə gətirib çıxarır. Bu baxımdan turizm müəssisələrinə dövlət dəstəyinin göstərilməsi və onlara subsidiyaların verilməsi önəmli faktordur. Amma Naxçıvan MR Turizm Departamentinin və Naxçıvan Turizm İnformasiya Mərkəzinin fəaliyyətinin dayandırılması kimi qərarların verilməsi turizmin inkişafına mane olur. Belə qərarlar dövlətlə turizm müəssisələri arasındakı əlaqələrin kəsilməsinə səbəb olmuşdur.

7. Tədqiqat dövründə müəyyən edilmişdir ki, Naxçıvan MR-da mövcud olan turoperatorların sayının azlıq təşkil etməsi və fəaliyyətinin qənaətbəxş olmaması regionda turizmin inkişafına mənfi təsir göstərmişdir. Vurğulamaq lazımdır ki, son illərdə regionda turizm müəssisələrinin qeydiyyatdan keçməsində bir çox problemlər yaranmış, bu da turizm sektorunda uğursuzluğun əldə olunmasına şərait yaratmışdır. Bu baxımdan turizm sahəsinə dövlət dəstəyi mexanizminin gücləndirilməsi, əsasən də müəssisələrə subsidiyaların verilməsi məqsədəuyğun hesab olunur. Beləliklə, turizmdə müəssisələrin sayının artması və xidmət çeşidinin müxtəlifliyi bu sahədə yeni iş yerlərinin açılmasına, əhalinin maddi rifah vəziyyətinin yaxşılaşdırılmasına təkan verəcəkdir.

8. Müəyyən edilmişdir ki, Naxçıvan MR-da regional turizmin inkişafında çatışmazlıqlar hələ də qalmaqdadır. Bu isə turizm şirkətləri və dövlət qurumları arasında əlaqələrin zəifliyi, təbliğat-təşviqatın lazımi səviyyədə olmaması və maliyyə vəsaitinin çatışmazlığı dövlət dəstəyinin zərurətini artırır.

9. İşdə aparılan ekonometrik qiymətləndirmə nəticəsində müəyyən edilmişdir ki, makroiqtisadi göstəricilərin ÜDM-ə təsiri, ilk növbədə, ödənişli xidmətlərin dəyərinin və pərakəndə ticarətin həcminin artmasına səbəb olmuş və beləliklə, turizm sektorunda ödənişli xidmətlərin dəyərinin 1 % artması iqtisadi rayonda ÜDM-in 0,86 % çoxalmasına birbaşa təsir göstərmişdir.

TƏKLİFLƏR

Naxçıvan Muxtar Respublikasında turizmin sosial-iqtisadi inkişafa təsirinin artırılması istiqamətində bir sıra təkliflər irəli sürülmüşdür:

1. Beynəlxalq təcrübəyə əsaslanaraq Naxçıvan MR-da Arazboyu iqtisadi zonanın yaradılması turizmin inkişafına zəmin yarada bilər.

Belə ki, BƏƏ-nin Dubay şəhərində yaradılan Azad İqtisadi Zona bu ölkədə turizmin inkişafına təkan vermişdir. Naxçıvan MR-da da belə bir iqtisadi zonanın yaradılması turizmin sürətli inkişafına səbəb olacaq. Regionun Türkiyə (Avropaya çıxışı) və İranla (Yaxın və Orta Şərq, Cənubi Asiyaya çıxışı) həmsərhəd olması azad iqtisadi zonanın Naxçıvan MR-nın iqtisadiyyatına müsbət təsiri olacaqdır.

2. Turizm zərflərinin qiymətlərinin baha olması turistlərin axınına mənfi təsir göstərir. Bu isə iqtisadi rayonda müqəddəs yerlərin ziyarət edilməsi və s. kimi başqa ekskursiyaların dövlət səviyyəsində ucuz qiymətlərlə təşkil olunmasının vacib məsələlərindən biridir. Azərbaycanda turizm qiymətlərində "bazarın qaymağını götürmək" siyasətindən istifadə edilir. Belə ki, regionun sosial-iqtisadi inkişafının təmin olunmasında dövlət qiymət mexanizmini tənzimləməli və konkret addımlar atmalıdır. Naxçıvan

MR-da olan turizm məhsulu qiymətlərinin baha olması onun inkişafına mənfi təsir göstərir. Regionun blokada vəziyyəti, gediş-gəlişin çətin olması kimi amillər də qiymətlərin baha olmasında əsas amildir. Qiymətlərin münasib olması turistlərin cəlbediciliyini artıracaqdır.

3. Qəbul olunmuş Dövlət Proqramlarında müəyyən çatışmazlıqlar mövcuddur ki, bu da onun reallaşdırılmasında bir sıra çətinliklər yaradır. Ona görə də dövlət proqramlarının icrasına nəzarəti gücləndirməli və bu sahədə konkret addımlar atılmalıdır.

"2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı" qəbul edilmişdir ki, bu sərəncama əsasən də təkcə Ağbulaq Xizək Mərkəzi (17 fevral 2021-ci ildə) tikilib istifadəyə verilmişdir. Naxçıvanda mövcud olan 210 kənddən 20-sinin turizm potensialının zəngin olması regionda kənd və aqro turizmin inkişafını labüd edir. Ağbulaq kimi başqa kəndlərdə də belə turizm istirahət mərkəzlərinin tikilib istifadəyə verilməsi regional turizmin gələcək inkişafına da müsbət təsir göstərəcəkdir. Kənd turizmi xalq sənətkarlığının və ev təsərrüfatının inkişafına da şərait yaradır ki, bu da gəlirlərin formalaşmasına gətirib çıxarır.

Dövlətin turizmlə bağlı qəbul etdiyi proqramların həyata keçirilməsi nəinki bu sahənin Naxçıvan MR-nın sosial-iqtisadi inkişafında rolunu artıracaq, eyni zamanda Azərbaycanda, hətta Qafqaz regionunda böyük bir turizm destinasiyasına çevirəcəkdir.

4. Tədqiq olunan regionun turizm müəssisələrində kadr potensialından səmərəli istifadə önəmli məsələlərdən biri kimi çıxış edir və öz növbəsində bu sahənin inkişafında müsbət meyllərin əldə edilməsinə imkan yarada bilər. Bunun üçün mütəmadi maarifləndirmə tədbirləri həyata keçirilməli, bu istiqamətdə seminarlar təşkil edilməlidir.

5. Dövlət Naxçıvan MR-da fəaliyyət göstərən turizm şirkətləri ilə birgə əməkdaşlıq etməli və onlara hərtərəfli köməklik göstərməlidir. Onu da vurğulamaq lazımdır ki, regional turizmin təbliğat-təşviqatının aparılmasında marketinqdən səmərəli istifadə, bu istiqamətdə reklam videoçarxlarının çəkilməsi və dövlət səviyyəsində sərgilərin təşkili prioritet məsələdir. Turizmin təbliğatı

və turistlərin axını üçün bu mütləq şərtdir. Hazırda bu əlaqənin zəif olması, regional turizminin təbliğatına və tanıdılmasına mənfi təsir göstərir.

6. Beynəlxalq tədbirlərin regional səviyyədə zəngin turizm potensialına malik olan Naxçıvan MR üçün xeyli gəlir mənbəyi ola bilər. Əsasən də 03 oktyabr 2009-cu ildə keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Naxçıvan sazişinin imzalanması buna misal ola bilər. WUF13-Dünya Şəhərsalma Forumunun Naxçıvan MR-da keçirilməsi regional turizminin tanıdılması baxımından əhəmiyyətli ola bilərdi. Belə tədbirlər Bakı şəhərinin "yükünün" azaldılmasında və regionun turizm potensialının aşkar edilməsində mühüm rol oynayır. Onu da vurğulamaq lazımdır ki, bu kimi tədbirlər Bakı şəhərində yaşayan əhalinin mövcud vəziyyətini daha da çətinləşdirir və regionlarda təşkil olunması məqsədəuyğun hesab olunur. Belə regional və beynəlxalq tədbirlərin keçirilməsi turizmdən gələn gəlirlərin davamlılığının təmin olunmasına, regionun təbliğat-təşviqat kompaniyasının aparılmasına və eyni zamanda, dövlətin beynəlxalq miqyasda artan nüfuzunun daha da çoxalmasına şərait yaradacaqdır.

7. Turizmin hər bir növünün inkişafına dövlət xüsusi diqqət yetirməlidir. Naxçıvan MR-da zəif inkişaf edən turizm sahələri vardır ki, onların inkişafı üçün müəyyən proqramlar qəbul etməli, bir sıra tədbirlər görməlidir.

Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına mane olan problemlərdən biri (bütün iqtisadi sahələrdə olduğu kimi, turizm sahəsində də) rəqabət mühitinin olmamasıdır. Bunun üçün dövlət turizm müəssisələrinin fəaliyyətinə nəzarət etməli, konkret addımlar atmalıdır. Turizm sahəsində rəqabət mühitinin olmaması regionun inkişafına mane olmaqla yanaşı, başqa sosial-iqtisadi problemlərə də yol açmaqdadır. Məsələn, Naxçıvan MR-a təyyarə uçuşları yalnız AZAL ("Azərbaycan Hava Yolları" Dövlət Konserni) vasitəsi ilə həyata keçirilir ki, bu da əhalinin regiona gediş-gəlişində müəyyən "süni problem"-lər yaradır. AZAL-ın regiona təyyarə uçuşlarının həyata keçirilməsində tək şirkət (monopoliya) olması öz qiymətlərini və xidmətlərini əhaliyə məcburi diktə etməsinə gətirib çıxarır. Əhalinin regiona gediş-gəlişin intensivləşdiyi mövsümlərdə

həm süni qiymət (ekonom biletin qiymətinin 60 manatdan 80-100 manata) artımına, həm də xidmət keyfiyyətinin (insanların bilet almaq üçün saatlarla növbədə gözləməsinə, uçuş zamanı göstərilən xidmət və s.) aşağı düşməsinə təsir edir. Lakin rəqabət mühitinin formalaşması rəqib şirkətlərin yaranmasına gətirib çıxaracaqdır ki, bu da ümumilikdə hava nəqliyyatı sahəsində qiymətlərin aşağı düşməsində mühüm rol oynayacaq. Beynəlxalq uçuşların (Moskva, İstanbul) sayında və istiqamətində dəyişikliklərin edilməsi turistlərin regiona axınına şərait yaradacaq.

Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:

1. Məmmədov T.V., Turizmin inkişaf etdirilməsində marketinqin rolu // -Turizm və rekreasiya: problemlər və perspektivlər // III Respublika elmi praktiki konfransı. 2009. s. 147-151.
2. Məmmədov T.V., Turizmin Azərbaycanda inkişafının xüsusiyyətləri və əsas istiqamətləri // - Naxçıvan Dövlət Universiteti Elmi Əsərlər № 2 (34)-2010, s. 293-297.
3. Məmmədov T.V., Kənd turizminin inkişaf etdirilməsi yolları // - Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Xəbərlər İctimai və Humanitar Elmlər seriyası-7 (№ 1.) 2011, s. 289-297.
4. Məmmədov T.V., Turizmdə marketinqin əsas məqsədi və konsepsiyası // - Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri // Beynəlxalq konfrans. 2011. s. 181-183.
5. Məmmədov T.V., Turizmin inkişafında dövlətin tənzimləyici rolu // - Turizm və Qonaqpərvərlik tədqiqatları elmi jurnal № 1, 2012, s. 28-32.
6. Мамедов Т.В., Исполъзование потенциала туризма в Нахчыванской Автономной Республике // - Материалы научно-практической конференции // “Ролъ науки в развитии общества” //. Санкт-Петербург. № 9 (18) 2012. с. 110-111.

7. Məmmədov T.V., Naxçıvan Muxtar Respublikasında turizm və ekskursiya imkanları // - Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Xəbərlər İctimai və Humanitar Elmlər seriyası-9 (№ 1). 2013, s. 284-293.
8. Мамедов Т.В., Вопросы внедрения инноваций в туристическом секторе Нахчыванского региона // - Проблемы и перспективы инновационного развития экономики. // Материалы XVIII международной научно-практической конференции. Ялта, Украйна, 30 сентября-06 октября 2013 г. с. 347-349.
9. Məmmədov T.V., Naxçıvanda müalicəvi turizmin inkişaf strategiyası // - Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, NDU-2014, № 2 (58). s. 201-205.
10. Məmmədov T.V., Naxçıvan turizminin regional inkişaf xüsusiyyətləri // - Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Xəbərlər İctimai və Humanitar Elmlər seriyası. 2014, s. 265-273.
11. Məmmədov T.V., Turizm ehtiyatları və onlardan səmərəli istifadə // - Azərbaycan Turizm və Menecment Universiteti // Azərbaycanda Davamlı Turizm Məhsulları // Respublika elmi praktiki konfransı. Bakı-2017, s. 179-184.
12. Məmmədov T.V., Naxçıvan Muxtar Respublikasında turizmin real imkanları və perspektivləri // - Azərbaycan Milli Elmlər Akademiyası Xəbərlər jurnalı İqtisadiyyat seriyası 2017-2 (mart-aprel). s. 36-42.
13. Məmmədov T.V., Naxçıvan Muxtar Respublikasında turizmin müasir vəziyyəti // - Azərbaycan Milli Elmlər Akademiyası Elmi əsərlər jurnalı 2017-3, s. 116-121.
14. Məmmədov T.V., Turizm müəssisələrində mənfəətin formalaşması // - Strateji iqtisadi islahatlar: AMEA İqtisadiyyat İnstitutu: Qabaqlayıcı vergi siyasəti // Beynəlxalq elmi praktiki konfrans. Bakı-2017, s. 371-373.
15. Məmmədov T.V., Dini turizm və onun Naxçıvan Muxtar Respublikasında inkişafı // - Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr

olunmuş İqtisadi artım və ictimai rifah // Beynəlxalq elmi-praktiki konfrans. Bakı-2019, s. 641-646.
16. Məmmədov T.V., Müasir dövrdə Naxçıvan Muxtar Respublikasının sosial-itisadi inkişafı // - Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. Elmi əsərlər jurnalı 2019-6, s. 385-391.
17. Məmmədov T.V., Naxçıvan Muxtar Respublikasında turizmin inkişafının tədqiqi // - Dayanıqlı inkişaf, uğurlar, perspektivlər 1995-2020 // Beynəlxalq konfrans. 2021. s.109-112.
18. Məmmədov T.V., Naxçıvan regionunda beynəlxalq turizmin inkişaf perspektivləri // - Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. İqtisadi artım və ictimai rifah jurnalı. №4. 2021. s. 86-94.
19. Məmmədov T.V., Naxçıvan turizminin inkişafına təsir edən əsas amillər // - Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının aktual problemləri // Respublika elmi konfransı. 2022. s. 303-306.
20. Мамедов Т.В., Основные направления развития туризма в Нахчиванской Автономной Республике // - Ярославский Государственный Технический Университет, // Журналы Теоретическая экономика. № 9 (13), 2024, с. 104-113.



Dissertasiyanın müdafiəsi "11" dekabr 2026-cı il tarixində saat 11⁰⁰ -da Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: H.Cavid prospekti, 115, Bakı, Azərbaycan AZ 1143

Dissertasiya ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir (economics.org.az).

Avtoreferat "11" noyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:06.11.2026
Kağız formatı: A5
Həcm: 39 316 işarə
Tiraj: 100 nüsxə